# “Məktəbəqədər və ibtidai təhsil” jurnalının xüsusi buraxılışı

## *Xüsusi buraxılış Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunub*

Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizin elmi, ictimai və mədəni həyatında mühüm tarixi hadisədir. “Əkinçi” qəzetinin nəşri ilə əsası qoyulan milli mətbuatımız xalqımızın maariflənməsi, milli şüurun formalaşması və elmin inkişafında müstəsna rol oynamışdır.




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 aprel 2025-ci il tarixli “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı bu tarixi hadisəyə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz ifadəsidir. “Məktəbəqədər və ibtidai təhsil” elmi-metodik jurnalı redaksiyası olaraq milli mətbuat tariximizə ehtiram və minnətdarlıq nişanəsi kimi ötən ildə planlaşdırılmış xüsusi buraxılışı Azərbaycan milli mətbuatının yubileyinə həsr etməyi qərara aldıq. Bu xüsusi buraxılış həm də jurnalımızın yaradılmasının 55 illik yubileyi ilə üst-üstə düşür. Elmi-metodik jurnalın 1970-ci ildə həyata vəsiqə qazanmasında o zamankı maarif naziri, akademik Mehdi Mehdizadənin mühüm rolu olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə Azərbaycanda məktəbəqədər və ibtidai təhsilə dair ilk elmi-pedaqoji nəşr formalaşdırılmışdır. Jurnalın ilk baş redaktoru olmuş və 50 il müddətində ona rəhbərlik etmiş professor Yəhya Kərimovun böyük xidmətləri isə həm pedaqoji mətbuat ənənəsinin, həm də elmi-metodik fikrin davamlı inkişafında dərin iz qoymuşdur.

Xüsusi buraxılışda elmi-pedaqoji mətbuatın tarixi-mənəvi kökləri, dil və üslub xüsusiyyətləri, milli mətbuatın formalaşması, elmi-pedaqoji nəşrlərin təhsilin və pedaqoji elmin inkişafına təsir imkanları, müasir media təhlükəsizliyi, uşaq mətbuatının, hərbi mətbuatın inkişaf tendensiyaları, eləcə də klassik pedaqoji nəşrlərin ideya xətti geniş elmi aspektdən araşdırılmışdır. Buraxılışda “Məktəbəqədər və ibtidai təhsil” jurnalının tarixi irsinə, “Azərbaycan məktəbi” kimi elmi nəşrlərin məzmun strategiyasına, pedaqoji fikir tarixinin aparıcı müəlliflərinin fəaliyyətinə dair konseptual tədqiqatlar yer almışdır.

Göründüyü kimi, buraxılışın məqsədi yalnız tarixə nəzər salmaq deyil, həm də müasir dövrdə elmi-pedaqoji mətbuatın qarşısında duran çağırışları və inkişaf perspektivlərini müəyyənləşdirməkdir. İnformasiya cəmiyyətində elmi nəşrlərin dayanıqlılığı, müəllim və tərbiyəçi hazırlığında elmi mətbuatın rolu, elmi pedaqoji jurnalistikanın müasir konsepsiyası və metodoloji istiqamətləri buraxılışın araşdırma predmetinə çevrilmişdir.

Elmi-pedaqoji mətbuat təkcə məlumat ötürən vasitə deyil, həm də pedaqoji düşüncənin inkişafı, elm və təhsilin qarşılıqlı əlaqəsinin gücləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması, təhsil siyasətinin formalaşması və cəmiyyətin maariflənməsi baxımından strateji platformadır. Bu mənada onun keçmişini öyrənmək bu günün və gələcəyin elmi pedaqoji nəşr modelini müəyyənləşdirmək, eyni zamanda təhsilin və pedaqoji fikrin inkişafı üçün zəngin nəzəri və metodiki bazanın təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Azərbaycan təhsili və pedaqogikası üçün mühüm əhəmiyyət daşıyan bu xüsusi buraxılışın elmi ictimaiyyət, müəllimlər, tədqiqatçılar və jurnalistlər üçün dəyərli mənbə olacağına inanıram.


**Böyükağa MİKAYILLI,**
*“Məktəbəqədər və ibtidai təhsil”*
*elmi-metodik jurnalının baş redaktor əvəzi*



Azərbaycan müəllimi.-2026.- 10 yanvar, №1.- S.8.